BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaWall®-5000 Mineral Deco DR

Fasad və divar tətbiqləri üçün yağmur damlası teksturalı mineral dekorativ suvaq

## TƏSVIR

SikaWall®-5000 Mineral Deco DR, sement tərkibli, polimər və xüsusi əlavələr ilə gücləndirilmiş dekorativ suvaq. Fasadlarda, divarlarda və EİFS kompozid istilik izolyasiya sistemlərində  istifadə olunan yağmur damlası teksturalı dekorativ suvaq materialıdır.

## İSTİFADƏ YERLƏRİ

- Daxili və xarici məkan tətbiqlərində
- İstilik izolyasiya sistemlərində dekorativ suvaq olaraq
- İstifadəyə hazır yağmur damlası (DR) teksturalı hazır suvaq tətbiqlərində
- Tətbiq səthləri:

- 28 günlük beton səthlərdə
- 28 günlük suvaq səthlərində
- Fibro beton lövhələrinin üzərində
- SikaWall®-45 deco primer ilə SikaWall®1030 suvaq səthlərində

## ÜSTÜNLÜKLƏRİ

- Yüksək su keçirməzlik və çüzi su hopduruculu
- Yüksək müqavimətli dekorativ suvaq
- Tövsiyyə olunan səthlərə yüksək yapışma gücü
- Boya və fasad örtükləri altında estetik dekorativ bitiş

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS Uyğunluq sertifikatı.
EN 15824 standardına uyğun olaraq : Üzvi bağlayıcı tərkibli, xarici və daxili məkan suvaqları üçün spesifikasiyalar.

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Ağ sement, mineral aqreqatlar, polimer əlavələr |
| **Qablaşdırma** | 25 kq-lıq torba |
| **Saxlama Müddəti** | Açılmamış, zədələnməmiş, bağlı qablaşdırmada, düzgün saxlama şərtlərində  istehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Məhsul quru şəraitdə +5°C ilə +25°C arasında olan temperaturda saxlanmalıdır. Birbaşa günəş işığından, yağışdan və şaxtadan qorunmalıdır. |
| **Görünüş və rəng** | Bəyaz toz |
| **Maksimum dənəcik ölçüsü** | 3mm |
| **Sıxlığı** | 1.6 kg/lt |

## TEXNİKİ MƏLUMATLAR

| | | |
|---|---|---|
| **Sıxılma müqaviməti** | ≥ 10,0 mPa | (EN 1015-11) |
| **Bükülmə gücü** | ≥ 5,0 mPa | (EN 1015-11) |
| **Dartma yapışma gücü** | ≥ 0,3 mPa | (EN 1015-12) |

## SİSTEM MƏLUMATI

| | | |
|---|---|---|
| **Sistem strukturu** | SikaWall®-1010 Adhesive | Yapışdırıcı |
| | Reinforcement Mesh | Şüşə fiber tor hörgü |
| | SikaWall®-1030 Render | Hamarlayıcı suvaq |
| | SikaWall®-45 Deco Primer | Hopdurucu səth astarı |
| | SikaWall®-5000 Mineral Deco DR | Mineral dekorativ suvaq |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Sərfiyyat** | ~ 1.5 kg/m² /mm |
| **Təbəqə qalınlığı** | ~ 3 mm |
| **Ətraf mühit temperaturu** | +5°C min. / +30°C maks. |
| **Qarışdırma nisbəti** | 25 kq-lıq torba üçün 5.0 -5.50 lt su, Su/toz nisbəti 0.20-0.22 (kütləcə) |
| **Səthin temperaturu** | +5°C min. / +30°C max. |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Qarışdırılan materialın miqdarı, qarışımın istifadə ömrü ərzində tətbiq ediləcək miqdara bərabər olmalıdır.
- Sərtləşmiş materialı su ilə təkrar qarışdıraraq aktivləşdirməyin.
- Xarici məkan tətbiqlər zamanı tətbiq olunan materialı 24 saat birbaşa günəş işığı, güclü külək və yağışdan qoruyun.
- Ətraf mühitin və səthin temperaturu +25 °C-dən yüksək olduqda, erkən su itkisinin qarşısını almaq və suvağın yaxşı bərkiməsinə nail olmaq üçün səth müəyyən müddət ərzində çiləmə üsulu ilə (təzyiqsiz su ilə) nəmləndirilməlidir.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## TƏTBİQ TƏLİMATLARI

### SƏTHİN KEYFİYYƏTİ/ÖN HAZIRLIQ

Tətbiqə başlamadan öncə, səth müqavimətli və təmiz olmalı, toz, kir, yağ, köhnə örtüklərdən və zəif tutunmuş parçacıqlardan digər çirkləndiricilərdən arındırılmış olmalıdır. SikaWall®-45 Deco Primer astar məhlulu istifadə edilməlidir.
Səth təmiratı, gözənəklərin və boşluqların doldurulması, hamarlanması uyğun SikaWall® məhsullarından istifadə edilərək edilməlidir.

### QARIŞDIRMA

Qarışdırma nisbətinə uyğun su miqdarı təmiz qarışdırma qabına qoyulmalı, elektrikli qarışdırıcı aşağı sürətdə çalışdırılaraq toz material yavaş-yavaş əlavə olunmalıdır. Aşırı hava daxili olmasına imkan vermədən, yekcins, topaqsız qarışım əldə olunanadək 3 dəqiqə ərzində qarışdırılmalı, 5 dəqiqə dinləndirilməli, təkrarən qısa müddətli qarışdırmaqla tətbiqə hazır hala gətirilməlidir .

### TƏTBİQ

Material SikaWall®-45 DecoPrimer ilə astarlanmış səthə plastik və ya poliuretan mala ilə tək istiqamətli hərəkətlərlə çəkilməlidir. Tətbiq zamanı mala tez-tez təmizlənməlidir. Tətbiq qalınlığı materialdakı ən böyük hissəcik ölçüsü nəzərə alınmaqla tənzimlənməlidir. Materialın künclərə və son nöqtələrə tətbiq edilməsinə diqqət yetirilməlidir. Hər bir qarışdırma üçün eyni miqdarda su istifadə edilməlidir, əks halda səth naxışları və rəng fərqləri yarana bilər. Mineral tərkibinə görə, müxtəlif partiya məhsullarında cüzi

rəng fərqləri ola bilər. Tətbiq edildikdən sonra uyğun boya ilə rəngləmək tövsiyə olunur.

### AVADANLIQ TƏMİZLİYİ

Alətlərdən və tətbiq avadanlıqlarından təzə qalıqların çıxarılması istifadədən dərhal sonra su ilə həyata keçirilə bilər. Sərtləşmiş material yalnız mexaniki şəkildə çıxarıla bilər.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12